# "Əsirlikdə 8 gün" filminin təqdimatı olub

Fevralın 25-də Bakı Konqres Mərkəzində "Xocalıya ədalət!" kampaniyası çərçivəsində Xocalı soyqırımının 33-cü ildönümü münasibətilə ərsəyə gətirilmiş "Əsirlikdə 8 gün" bədii filminin təqdimatı keçirilib.




AZƏRTAC xəbər verir ki, bədii film Xocalı soyqırımının şahidi olmuş və 8 gün erməni zindanında ağır işgəncələrə məruz qalmış mərhum Dürdanə Ağayeva və qardaşı Elşad Ağayevin timsalında faciənin ağrılı nəticələrinə həsr olunub. Film bacı-qardaşın əsirlikdə yaşadığı dəhşətli günləri və çəkdiyi əzabları əks etdirir.

Təqdimat mərasiminin əvvəlində Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib, Vətən uğrunda canından keçmiş şəhidlərimizin əziz xatirəsi birdəqiqəlik sükutla yad edilib.

Filmin nümayişindən əvvəl Milli Məclis sədrinin müavini Musa Qasımlı, Azərbaycan Respublikasının Gənclər Fondunun icraçı direktorunun müavini vəzifəsini icra edən Yusif Vəliyev çıxış edərək 2008-ci ildə Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə başlanmış "Xocalıya ədalət!" kampaniyası haqqında ətraflı məlumat verib, eyni zamanda Dürdanə Ağayevanın həyat mübarizəsindən, müəllifi olduğu "Erməni zindanında 8 gün" və "Xocalı şəhidləri 613" kitabları vasitəsilə Xocalı həqiqətlərini dünyaya və gənc nəsillərə çatdırmaq üçün göstərdiyi səylərdən bəhs edib. Qeyd olunub ki, Dürdanə Ağayeva və qardaşının hekayəsi faciənin dəhşətlərini anlamağa imkan verən yüzlərlə hekayədən sadəcə biridir.

Filmin nümayişindən sonra "CVN Group"un baş direktoru, filmin baş prodüseri Səbinə Məlikova çəkiliş prosesi zamanı heyətin emosional olaraq yaşadıqları çətin anları dilə gətirib, Xocalı faciəsinin unudulmaması və dünya ictimaiyyətinə çatdırılması baxımından mühüm əhəmiyyət kəsb etdiyini vurğulayıb. Sonra təəssüratlarını bölüşməsi üçün filmin quruluşçu rejissoru Vüsal Əhmədzadə başda olmaqla çəkiliş heyəti və Dürdanə Ağayevadan yadigar qalan qızı Ləman Camalova səhnəyə dəvət olunub.

Film "Xocalıya ədalət!" kampaniyası çərçivəsində Azərbaycan Respublikasının Gənclər Fondu, CVN TV, Belə Belə İşlər və "CAVAN" Gənclər Hərəkatının birgə səyi ilə ərsəyə gətirilib. Filmin ssenari müəllifi Emin Əfəndiyev, prodüseri İbrahim Heydərov, quruluşçu operatoru Orxan Məmmədov, quruluş rəssamları Elturan Məmmədov və Elvin Əliyevdir.

Fevralın 26-da filmə ölkə ərazisindəki bütün kinoteatrlarda baxmaq mümkündür. Giriş ödənişsizdir.

Azərbaycan. - 2025.- 26 fevral (№ 43).- S.2.